# FƏTTAH XALIQZADƏ – 70



2023-cü il dekabrın 21-də Azərbaycan Milli Konservatoriyasının professoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar incəsənət xadimi Fəttah Xalıqzadənin 70 yaşı tamam oldu.

Böyük alim, təvazökar və səmimi insan olan Fəttah müəllim ötən illərinə fərəhlə baxa bilər. Belə ki, musiqişünaslıq sahəsindəki axtarışları musiqi elmi üçün böyük əhəmiyyətə malikdir. Görkəmli musiqişünasın yeniliklərlə zəngin olan elmi irsi gələcək nəsillər üçün bir ümmandır. Əminliklə deyə bilərik ki, bu dolğun və çoxşaxəli irs istər keçmişə, istərsə də gələcəyə işıq salmaqdadır.

Fəttah Xalıqzadəni beynəlxalq elmi dairələrdə çox yaxşı tanıyırlar. O, UNESCO nəzdində fəaliyyət göstərən Ənənəvi İrs üzrə Beynəlxalq Şuranın üzvüdür və onun konfrans və simpoziumlarında Azərbaycan musiqi elmini layiqincə təmsil edir. Dəfələrlə xarici ölkələrdə etdiyi məruzə və çıxışları, nəşr olunmuş məqalələri Fəttah müəllimin milli musiqimizin dünya miqyasında təbliğinə yönəlmiş dəyərli xidmətidir.

F. Xalıqzadənin  fəaliyyəti təkcə elmi axtarışlarla məhdudlaşmır. Onun pedaqoji fəaliyyəti bu sahədəki obrazını tamamlayır. Bu gün Azərbaycan Milli Konservatoriyasında yubilyarla çiyin-çiyinə çalışan professor və müəllim heyətinin bir çoxu onun tələbələri olub. Fəttah müəllim indi də böyük əzmlə gənc nəsil etnomusiqişünaslar yetişdirməkdədir.

Əlbəttə ki, F. Xalıqzadənin yaradıcılığı qeyd olunanlarla məhdudlaşmır. Məhz bunun nəticəsidir ki, musiqişünaslığın müxtəlif sahələrində göstərdiyi səmərəli fəaliyyətinə görə o, yüksək dövlət təltifinə -  Əməkdar incəsənət xadimi fəxri adına layiq görmüşdür.

Əziz və hörmətli Fəttah müəllim!

“Etnomusiqişünaslıq” kafedrasının professor və müəllim heyəti adından Sizi 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, Sizə möhkəm can sağlığı, uzun ömür, elmi fəaliyyətinizdə uğurlar arzulayırıq!

***Azərbaycan Milli Konservatoriyasının***
***“Etnomusiqişünaslıq” kafedrası***